# Xalqın məhəbbətini və inamını qazanmaq böyük şərəfdir





***Xoşbəxt o insanlardır ki, onlara verilən ömrü təkcə özləri, ailələri, yaxınları üçün yaşamırlar. Ömürlərini mənsub olduqları vətənin, xalqın xoş gələcəyinə həsr edə bilirlər. Bu insanlar tutduğu vəzifəyə görə deyil, etdiyi əməllərə görə tanınır, sevilirlər. Onlar ən yüksək vəzifəni, ən uca məqamı xalqa xidmətdə görürlər. Beləlri bir evin, bir ailənin övladı olmaqdan çıxıb, bütöv bir millətin övladı ola bilirlər.***

Dünyada adını tarixin yaddaşına yazmağı, bununla da bir millətin tarixi olmağı bacaran xanımlar, xatunlar çox olub. Azərbaycanın ilk qadın hökmdarı Tomris, orta əsrlərin mahir diplomatı Sara xatun, planetimizin yaxın keçmişinin parlaq simaları olan İndira Qandi, Marqaret Tetçer, Benezir Buhutto, Hillari Klinton, Angela Merkel tarixdə yer alan xanım liderlərdir. Adları tarixə düşmüş bu xanımlar nə qolun, nə də zorun gücü ilə uğur əldə ediblər, nə də tutduqları məqamı kimlərsə onlara peşkəş edib. Bu insanlar, sadəcə, ağılın, dərin zəkanın, yüksək intellektin, gərgin zəhmətin, xalqa olan hörmətin və xalqın inamını qazanmağın nəticəsində uğur əldə ediblər.

İnsan üçün ən böyük sərvət mənsub olduğu xalqın hörmətini, inamını, sevgisini qazanmaqdır. İnsanların qəlbində ucalan sarayı heç kimsə dağıda, yıxa bilməz.

Mehriban xanım Əliyeva da xeyirxah əməlləri ilə insanların qəlbində özünə məskən salmağı bacaran, dünyada ölkəsini tanıdan xanım liderdir.

Heydər Əliyev Fonduna uğurla rəhbərlik etməklə ulu öndərin müəyyən etmiş olduğu yolla getməyə üstünlük verən birinci xanım bu millətin istiqbalının əlində, təhsildə, bilikdə olduğunu, millətin yüksəliş yoluna məhz bu rakusdan işığ salmağın mümkünlüyünü yaxşı bildiyi üçün ölkəmizdə ilkin olaraq məktəb və məktəbəqədər uşaq müəssisələrinin tikintisinə daha çox önəm veməyi üstün tutdu. Məhz Mehriban xanımın təşəbbüsü və təşkilatçılığı ilə Azərbayacanın ucqar kəndlərində çoxsaylı yeni məktəblər tikilmiş, yaxud da əsaslı şəkildə təmir olunaraq, hər cür zəruri avadanlıqlarla, müasir idman qurğuları, trenajor zalları və tədris vasitələri ilə təmin olunaraq məktəblilərimizin ixtiyarına verilmişdir. Yeni idman meydançaları, uşaq, ailə sağlamlıq mərkəzləri tikilərək vətəndaşların xidmətinə verilib.

Ötən illər ərzində Heydər Əliyev Fondu və Mehriban xanım Əliyevanın fəaliyyətinin daha bir prioritet istiqaməti xəstəxana və polikilinikaların tikilməsi, təmirə ehtiyacı olanların yenidən bərpası, yeni sağlamlıq mərkəzlərinin açılması olmuşdur. Heç kimə sirr deyil ki, Mehriban xanımın qayğısı nəticəsində Bakı şəhərində, respublikanın digər rayon və şəhərlərində tikilib istifadəyə verilən müasir və baxımlı arxitektura nümunəsi olan tibb müəssələri əhaliyə xidmət göstərir. Bu gün Azərbaycanın ən ucqar rayonunun vətəndaşının belə müayinə və müalicə üçün Bakıya gəlməsinə lüzum yoxdur. Hər bir vətəndaşımız yaşadığı rayonda da diaqnostika olunub, yüksək səviyyədə müalicə ala bilir. Savadlı tibbi kadrların yetişdirilməsi, bu kateqoriyadan olan gənclərin xaricdə təhsil almaları üçün hər cür qayğı və diqqət göstərilir, tədris xərcləri ödənilir.

Alman şairi Henrix Heyne yazırdı ki, “millətlərin adətləri müxtəlifdir, amma yaxşılıq hər yerdə eynidir”. Çin filosofu Konfutsi isə insanları xarakterizə edərkən “ən yaxşı insan fərq qoymadan həmişə yaxşılıq edəndir”, – deyirdi. Mehriban xanımın xeyirxah əməllərinin coğrafiyası çox genişdir. Onun təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən xeyriyyə tədbirləri artıq şoxdan sərhədləri aşaraq dünyanın bir çox ölkəsində reallığa çevirib. 2007-ci ildə Hollandiyanın paytaxtı Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbi Heydər Əliyev Fondunun diqqətindən kənarda qalmayıb. Məktəbə kompüter dəsti və dərs vəsaitləri göndərilib. 2008-ci ilin fevralında isə fondun “Təhsilə dəstək” layihəsi çərçivəsində Pakistanın Müzəffərabad şəhərində dağıdıcı zəlzələ nəticəsində yararsız vəziyyətə düşən məktəb yenidən tikilərək, yüksək səviyyəli tədrisə imkan yaradan avadanlıqlarla təmin olunub. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Rusiyada, Gürcüstanda, Misirdə yeni məktəb binaları tikilərək istifadəyə verilib.

UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Mehriban xanımın şəxsi fəaliyyəti və təşəbbüsü nəticəsində Azərbaycan mədəniyyəti və incəsənəti, onun ən layiqli nümayəndələri artıq neçə illərdir ki, dünyaya geniş planda tanıdılır, təqdim olunur. Qədim və şərəfli tariximizin yadigarı olan tarixi abidələrimizin bərpa olunub gələcək nəsillərə ötürülməsi üçün əhatəli işlər aparılır. Xalqımızın min illik tarixi abidələrinin tədqiqi, arxeoloji qazıntıların aparılması üçün xüsusi diqqət göstərilir. Min illərdir tarixin süzgəcindən süzülüb gəlmiş, diqqətdən kənar qalmış adət ənənələrimizə, musiqi mədəniyyətimizə yenidən həyat verilir. Belə bir deyim var, “əməlini göstər, kim olduğunu deyim”. Onun müdrik və məqsədyönlü fəaliyyəti nəticəsində xoşniyyətli xalqımız dünyaya geniş planda təqdim oluna bilib.

Mehriban xanım xarici ölkələrdəki unikal mədəniyyət abidələrinin bərpası prosesində də yaxından iştirak edir. Fransada Dünya Mədəni İrs Siyahısına daxil edilmiş Versal sarayını, Parisdə XIV əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycanın orta əsr əlyazmalarının bərpa olunmasına kömək edib. Heydər Əliyev Fondu ilə Müqəddəs Arxeologiya üzrə Papa Komissiyası arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, Fond Romanın Kapitoli Muzeyində bərpa işlərinin həyata keçirilməsinə də dəstək verib.

Mehriban xanım Əliyeva bütün bu işləri xalqımızı dünyaya tanıtmaq, Azərbaycan mədəniyyətinin, tarixi irsinin, incəsənətinin dünyanın bir parçası olduğunu sübut etmək, Azərbaycanın dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biri olduğunu, Azərbaycan mədəniyyətinin dünyaya sürətlə inteqrasiya məramını sübut etmək məqsədi ilə həyata keçirib.

Heydər Əliyev Fondu artıq neçə illərdir ki, ermənilər tərəfindən xalqımızın başına gətirilən faciələrin dünya xalqlarına çatdırılması istiqamətində davamlı və əhatəli iş aparır. Məsələn, erməni vandalizminin mahiyyətinin əyanı sübutu olan 20-ci əsrin ən qəddar faciəsi olan Xocalı qətliamı hər il Heydər Əliyev Fondunun təşəbbüsü ilə dünyanın əksər ölkələrində qeyd edilməkdədir. Mehriban xanımın birbaşa təşəbbüsü və dəstəyi ilə keçirilən bu tədbirlərdə yaradıcı insanların, rəssamların, sənət adamlarının Xocalı faciəsindən bəhs edən əl işlərindən ibarət sərgilər təşkil olunur. Fotoşəkillər və sənədli filmlər nümayiş etdirilərək insanlara bu faciə barədə dəqiq bilgi verilir. Bunun nəticəsidir ki, artıq bir neçə ölkə 20-ci əsrin ən dəhşətli, qanlı faciəsi olan Xocalı qətliamını soyqırımı kimi tanıyıb. Bu, insanları öz çürük ideyaları ilə zəhərləyən erməni lobbisi üzərində parlaq qələbənin sübutudur. Xeyirin, şər üzərində qələbəsidir.



Biz bütün bunların nəticəsini döyüş meydanında rəşadətli Azərbaycan ordusunun, əsgər və zabitlərimizin qəhrəmanlıqlar göstərdiyi zaman bir daha hiss etdik. 44 günlük Vətən müharibəsi zamanı dünyanın ən nəhəng dini mərkəzi olan Vatikanın Qarabağ probleminin həllində obyektivliyin tərəfdarı olduğunu ifadə etməsi, neytrallığını qoruyub saxlaması, İtaliya kimi nəhəng bir dövlətin öz dostluğunu ifadə edərək xalqımızın, dövlətimizin yanında olması haqqın, ədalətin təntənəsi kimi qəbul edilməlidir. Vətən muharibəsi zamanı dost ölkə Pakistanın hər an isti nəfəsini duyduq. Budur, siyasi uzaqgörənlik. Budur, hay-küysüz xalq, millət sevgisi. Öz xalqının, dövlətinin yolunda özünü sakit, səssizcə fəda etmək qüdrəti.

Mehriban xanım Əliyeva UNESCO və ISESCO-nun xoşməramlı səfiri olmazdan daha əvvəl dara düşən, köməyə, himayəyə, yardıma ehtiyacı olan insanların, belə demək olarsa, bütövlükdə Azərbaycan xalqının xoş məramlı səfiridir. O, həm də xalqımıza məxsus milli-mənəvi və tarixi dəyərlərin təkcə ölkə daxilində deyil, bütövlükdə dünya miqyasında qorunması, öyrənilməsi və təbliği sahəsində xüsusi xidmətləri olan mədəniyyət səfiridir.

Arxasıza dayaq olmaqdan, kimsəsizə kömək etməkdən, imkansıza əl tutmaqdan daha artıq savab nə ola bilər?! Etiraf edək ki, Mehriban xanım bu gün ölkəmizdə ehtiyacı olan hər bir vətəndaşın ümid yeri, güman yeridir. İnsanlar gözəl bilirlər ki, çətinliyə düşənin, köməyə ehtiyacı olanın, bir sözlə hər kəsin üz tutmağa bir ünvanı var. Ona mehribanlıq göstərəcək, dərdinə pasiban olacaq bir doğması var. Ona üz tutanların nə zamansa naümid, peşiman olduğunu düşünmək belə ədalətsizlik olar. Bu günədək bəlkə də, minlərlə insan, məhz onun qayğısı sayəsində müalicə alaraq sağlamlığına qovuşub. Onun vətən yolunda canlarını fəda etmiş şəhidlərin ailələrinə göstərdiyi qayğı və fədakarlıq sözlə ifadə olunmayacaq dərəcədə böyükdür.



Qazilərimiz üçün ən son texnologiya ilə hazırlanmış protezlər, yaradılan reabilitasiya mərkəzləri, Heydər Əliyev Fondunun vəsaiti hesabına tikilən evlər, edilən yardımlar görülən işlərin az bir qismidir. Bir sözlə, insanlarımızın dara düşüb, köməyə ehtiyac duyduğu hər yerdə Mehriban xanım var, onun köməyi və şəfqəti var. Şamaxıda zəlzələ olarkən dövlət başçısı cənab İlham Əliyev və Mehriban xanım hətta mətbuat nümayəndələrindən daha öncə təbii fəlakət zonasına gedərək zərərçəkənlərin ailələrində oldu, əllərini onların çiyninə qoyaraq, dağılan evlərinin yerinə daha gözəlini inşa etdirib onlara verəcəklərini dedilər.

Dünya COVID-19 bəlası ilə üzüzə qalanda da Mehriban xanımın xalqla bir olduğuna, sosial qayğıya ehtiyacı olan insanların yanında olduğuna şahidlik etdik. Bu çətin günlərdə Heydər Əliyev Fondu əhalinin ehtiyacı olan təbəqələrinə sovqat göndərib, yardımlar etdi. Artıq neçə illərdir ki, Qurban, Ramazan, Novruz bayramlarında aztəminatlı ailələri bayram sovqatları ilə sevindirmək ənənə halını alıb. Özü də Heydər Əliyev fondu bu cür humanist tədbirləri təkcə ölkəmizdə deyil, Pakistanda, Somalidə və digər ölkələrdə də həyata keçirməkdədir.

Səmimiyyəti, doğmalığı, xoş rəftarı ilə insanların qəlbində məskən salmağı bacaran Mehriban xanım Əliyeva sadəliyin zirvəsinə ucaldıqca, insanlığın, müdrikliyin zirvəsini də fəth etməyi bacara bilib. Elə belə deməyiblər ki, dünyanın ən böyük fatehi insanların qəlbini fəth edib, orada yurd-yuva salmağı bacaran insan ola bilər. Sadə əmək adamlarının evlərinə qonaq gedib ünsiyyət qurmaq, elin, obanın qayğısını öyrənib dərdini bilmək, insanlarımızla doğmalıq hissini daha da gücləndirir. Xalqın öz Prezidentinə, onun ailəsinə sevgisi, güvənini artırır. Azərbaycan dövlətinin böyük bir ailə, Azərbaycan Prezidentinin isə bu ailənin başçısı olmasına güclü inam yaradır.

Milli adət-ənənələrə hörmət, milli mənəvi dəyərləri uca tutmaq baxımından da Mehriban xanımın bir nümunə, bir örnək olduğu inkarolunmazdır. Onun müqəddəs ziyarətgahlara səfərləri, işğaldan azad olunmuş torpaqlarda ilk olaraq məscidlərimizi, milli mənəvi baxımdan xüsusi rolu olan Xüdafərin körpüsünü ziyarət etməsi, Şamaxıda Pir Ömər Sultan ziyarətgahında olması, tarixi-mədəni yadigarların öyrənilməsi, konservasiyası və bərpası işinə dəstək verməsi insanlar tərəfindən son dərəcə yüksək dəyərləndirilməkdədir.

Tanrı insanları sevəndə, insan Allaha layiqli bəndə olanda ulu yaradan da onun mükafatını əsirgəmir. İnsan nəinki bəndənin, Allahın da sevimlisi ola bilir. Biz qürurla deyə bilərik ki, xalq olaraq Allahın sevimlisiyik. Bütün bunlara görə tanrı bizi mükafatlandırdı. Tariximizə Vətən müharibəsi kimi düşən II Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun şücaəti sayəsində 30 il işğal altında saxlanılan torpaqlarımız azad olundu. Bununla da xalqımızın xalqlar arasında, dövlətimizin dövlətlər arasında, ordumuzun ordular arasında, Prezidentimizin, Ali Baş Komandanımızın dünyanın siyasi liderləri sırasında reytinqi göylərə qalxmış oldu.

İnsan dünyaya bir dəfə gəlir. Həyat da birtərəfli yol kimidir. Geriyə dönüş yoxdur. Gərək sənə verilən ömrü elə yaşayasan, elə ömür sürəsən ki, keçdiyin yola dönüb geri baxanda peşman olmayasan. Özün qalmasan da, izin qala. Nə mutlu ki, arxanca gələnlər, şüurlu həyatını bütünlüklə xalqına və dövlətinə həsr edənlər, bu yolu bir də keçmək istəyənlər xalqının qəlbində əbədi olaraq öz abidəsini ucaltmış bir insanın keçdiyini bilmiş olsun.

*Qafar CƏBİYEV,*
*tarix elmləri doktoru, professor, Əməkdar jurnalist*

*Elşən QƏNİ,*
*publisist*